**Həyata keçirdiyi balanslaşdırılmış və düşünülmüş xarici siyasət sayəsində əksər ölkələrlə yaxşı münasibətlərə malik olan Azərbaycan tarixən mədəni, humanitar, iqtisadi əlaqələrin mövcud olduğu şimal qonşusu Rusiya ilə də yüksəksəviyyəli münasibətlər qurub. İki ölkə prezidentləri İlham Əliyev və Vladimir Putin arasında möhkəm dostluq münasibətləri isə həm də Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə və daha da dərinləşməsinə əlavə stimul verir.**



# Tərəfdaşlıqdan strateji müttəfiqliyə

## Azərbaycan-Rusiya ikitərəfli münasibətləri yüksələn xətlə inkişaf edir

Aprelin 22-də Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfəri də iki ölkə arasındakı dostluq münasibətlərinin daha bir ifadəsi oldu.

"Bu gün sevindirici haldır ki, müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır", - deyə görüşdə dövlət başçısı İlham Əliyevin diqqətə çatdırdığı kimi, hazırda Rusiya ilə Azərbaycan arasında hərtərəfli yüksəksəviyyəli əlaqələr mövcuddur və bu, günbəgün daha da inkişaf edir.

### Əlamətdar hadisələrlə yaddaqalan tarixi səfər

Prezident İlham Əliyevin Rusiyaya sözügedən səfəri bir çox mühüm və əlamətdar hadisələrlə diqqət çəkirdi. Rusiya sülhməramlı kontingentinin ərazilərimizi tərk etdiyi və Baykal-Amur Magistralının 50 illik yubileyi ilə bir vaxta təsadüf edən bu səfər iki ölkə arasında siyasi, iqtisadi əlaqələrin sürətli inkişafının, xalqlarımız arasındakı əməkdaşlıq və dostluğun, eyni zamanda Ulu Öndər Heydər Əliyevin xatirəsinə olan yüksək hörmətin təzahürü kimi də əlamətdar oldu.

Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündəki çıxışında Vladimir Putin vurğuladı ki, Heydər Əliyev BAM-ın tarixində müstəsna, böyük rol oynayıb.

Rusiya ilə Azərbaycan arasında 32 il əvvəl - 1992-ci il aprelin 4-də qurulan diplomatik əlaqələr ötən illər ərzində uğurla davam edir. Bu münasibətlər Ümummilli Lider Heydər Əliyevin xüsusi səyləri ilə ən yüksək səviyyədə inkişaf etdirilməyə başlanılıb. Ölkələrimiz arasında, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 3 iyul 1997-ci il tarixli müqavilə, 2002-ci ilin yanvarında imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında Birgə Bəyannamə" kimi xeyli mühüm sənəd imzalanıb.

Xatırladaq ki, Rusiya Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsini sonuclandıran 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının imzalanmasında xüsusi rol oynayıb.

2022-ci il fevralın 22-də Moskvada Prezident İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanması isə Azərbaycan-Rusiya münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldib.

Bəyannamədə əksini tapıb ki, hər iki ölkə müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı fayda, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulmasına dair öhdəlik götürürlər. Eyni zamanda xüsusi olaraq vurğulanır ki, hər iki ölkə müstəqil xarici siyasət yürüdür, müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinməyə dair öhdəlik götürürlər.

### Bütün sahələrdə fəal əməkdaşlıq mövcuddur

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursunda Rusiya ilə əlaqələrin hərtərəfli inkişafına xüsusi önəm verilir. Bunu dövlət başçısının Rusiyaya mütəmadi işgüzar səfərləri, orada keçirdiyi görüşlər də sübut edir. Dövlətimizin başçısının aprelin 22-də Rusiyaya səfəri də bu baxımdan əlamətdar oldu. Bu səfər həm də Rusiya sülhməramlı kontingentinin hər iki ölkənin ali rəhbərliklərinin qərarı ilə Azərbaycandan çıxarılması kimi mühüm tarixi zamanla üst-üstə düşdü. Ölkəmizin Qarabağda separatizmin kökünü kəsməsi ilə Rusiya sülhməramlılarının da Azərbaycanda qalmasına lüzum qalmamışdı.

Həqiqətdir ki, Azərbaycan ilə Rusiya arasında olan münasibətlər sülhməramlıların ərazilərimizdən çıxarılmasından sonra daha da inkişaf edəcək. Münasibətlərdən hərbi komponentin çıxarılması daha yaxşı əməkdaşlıq üçün imkanlar açır.

Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfəri də buna bariz nümunə oldu. Moskvada Vladimir Putin ilə təkbətək görüşü zamanı Prezident İlham Əliyev bildirdi ki, regional təhlükəsizlik məsələləri həmişə bizim görüşümüzün gündəliyindədir: "Biz, həmçinin şadıq ki, onlar öz həllini tapır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Biz qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq".

Şimal qonşumuzla təkcə siyasi deyil, iqtisadi əlaqələrimiz də uğurla inkişaf edir.

Hazırda iki ölkə aralarında təkcə böyük nəqliyyat layihələri həyata keçirilmir, həm də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasında fəallıq nümayiş etdirilir, həm iqtisadi, həm siyasi, enerji, humanitar və bir çox digər sahələrdə fəal əməkdaşlıq aparılır.

Səfər zamanı dövləti başçısı məlumat verdi ki, "Şimal-Cənub" nəqliyyat dəhlizi məsələsini də Vladimir Putinlə bir daha ətraflı müzakirə ediblər: "Əminəm ki, yaxın vaxtlarda bütün məsələlər razılaşdırılacaq və biz daha bir möhtəşəm layihənin icrasına başlayacağıq".

Göründüyü kimi, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı etimada, dostluğa dayanan hərtərəfli yüksəksəviyyəli əlaqələr mövcuddur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 25 aprel, № 83.- S.16.